**UOT 759.1–759.9**

**Ülviyyə Tapdıq qızı Həmzəyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**dissertant**
**e-mail: ulviyya.hamzayeva@yahoo.com**

# İBRAHİM SAFİ YARADICILIĞINDA PORTRET JANRI

**Xülasə:** Təqdim olunan məqalədə görkəmli Azərbaycanlı rəssam, realizm üslubunun layiqli nümayəndəsi İbrahim Safinin yaradıcılığı haqqında bəhs olunur. Tədqiqata rəssamın portret janrında yaratdığı əsərlər cəlb edilmişdir. Qeyd edilir ki, Safinin yaratdığı portretlərdəki canlılıq, uğurlu kompozisiya həlli, təbiilik hər rəssamın portret yaradıcılığına aid ola bilən nüanslardan deyildi. Portret obrazları rəssamlardan xüsusi müşahidə qabiliyyəti, şəxsiyyətin fərdi aləminə, varlığına nüfuz etmək məharəti tələb edir. Əsl portret, naturanı sadə köçürmək yolu ilə deyil, insanın fərdi aləmini, tərcümeyi-halını, peşəsinin ən səciyyəvi və vacib psixoloji cizgisini, ruh halını, incəliklərin aşkara çıxarılması yolu ilə yaradılır.

**Açar sözlər:** İbrahim Safi, rəssam, portret, rəngkarlıq, kompozisiya, realizm, üslub, avtoportret.

İbrahim Safi (Rəhman Səfiyev, 1898-1983) öz üslubu, dəsti-xətti ilə Türkiyə və Avropa təsviri sənətində, rəngkarlıq tarixinin təşəkkülü və yüksəlişində misilsiz rol oynamışdır. 1920-ci illərdə həyatının Türkiyə dönəmində öz tablolarında daha çox xalq içindən sadə insanları əks etdirirdi. Lakin onun yaradıcılığında hər rəssama xas olan sevdiyi obrazlar da öz yerini tapmaqdadır. Rəssamın yaradıcılığında görkəmli şəxsiyyətlərin, müğənnilərin, elm adamlarının, siyasi xadimlərin obrazlarına rast gəlmək olar. Onlardan "Azəri qadın" (1923), "Qara geyimli naməlum qadın" (1956), "Qız uşağı" (1960), "Zeki Müren" (1931), "İnci sırğalı-boyunbağılı qadın" (1956), "Çəhrəyı qalstuklu adam" (1925), "Qarışıq üzlü kişi" (1923), "İstanbulda bir esnaf" (1949), "Gülməyən oğlan" (1923), "Hafiz" (1968), "Zərrux xanım" (1970), "Qırmızı ətəkli qız" (1980), "Çingənə"(1965) və başqa əsərlərini göstərmək olar.

1950-ci illərdən bu yana açdığı çoxsaylı sərgilərdə, xüsusilə, tünd rənglərə olan güclü meyli aşkar olunur. Bunu, xüsusilə, rəssamın portretlərində müşahidə edə bilərik. Onun klassik portret çalışmaları, əsasən, qəhvə rəngli fon üzərində gerçəkləşir və sevilirdi. Portretlərə tamaşa edərkən, insanların ilk reaksiyası "Canlı kimidir, nə qədər gözəldir!" dediklərini eşitmək olurdu. Bu gün Türkiyənin bəzi öndə gedən sənətşünasları İbrahim Safini məhz portret rəssamı kimi qələmə alırlar. Bəlkə də onların bu cür düşünməsi məhz rəssamın dilə gətirdiyi "Portret çəkməyi sevirəm, müəyyən müddətdən sonra, digər mövzuları buraxıb, yalnız istədiyim kimi portret işləyəcəyəm" – düşüncəsi olmuşdur [3; s. 11].

Rəssam portret janrının tələblərinə ilk dövr Moskvada, sonra isə Türkiyədə təhsil illərində xüsusi diqqətlə yanaşmış, insan surətini miniatür səviyyəsindən çıxararaq, akademizmin tələblərinə xas, qurma, dəqiq yaxılarla, sanki rəngli bir mozaika quraraq, ardınca onu bütövləşdirərək istənilən nəticəni əldə edirdi. O, insan surətini təhlil edərək, rəngkarlıq vərdişlərinə xüsusi tələbkarlıqla yaxınlaşmış və ona sadiq qalmışdır.

Safinin yaratdığı portretlərindəki canlılıq, uğurlu kompozisiya həlli, təbiilik hər rəssamın portret yaradıcılığına aid ola bilən nüanslardan deyildi. Portret obrazları rəssamlardan xüsusi müşahidə qabiliyyəti, şəxsiyyətin fərdi aləminə, varlığına nüfuz etmək məharəti tələb edir. Əsl portret, naturanı sadə köçürmək yolu ilə deyil, insanın fərdi aləmini, tərcümeyi-halını, peşəsinin ən səciyyəvi və vacib psixoloji cizgisinin, ruh halının incəliklərinin aşkara çıxarılması yolu ilə yaradılır [2; s. 14].

Rəssamın yaradıcılığının ilk illərində, professionallıqla “ilk” canlı olaraq işlədiyi, Türk tarixinin ulu öndəri Mustafa Kamal Atatürkün (1924) portreti idi.

İbrahim Safi Türkiyə tarixini dolğun həyat və qəhrəmanları ilə yaşadan rəssam kimi könüllərə nüfuz etmişdir. O, türk dünyasının atası Atatürkün rənglərdən boylanan obrazını yaratmağa nail olmuşdur. Bu portretdən bizə özündə türk xalqının qəhrəmanlığını, şücaətini hifz edən şəxsiyyətin baxışları yönəlməkdədir. Bu portretdə obrazın bədii kamilliyi ilə yanaşı, tarixi durumun inandırıcı ifadəsi də diqqəti cəlb edir. Bir-birini təkrarlamayan saysız əsərlərində, həyatdan aldığı ağır zərbələrlə əlaqəli əsərlərindəki rəng həlli sənətkarın keçirdiyi duyğuları dəqiq şərtləndiririr [1; s. 49].

İbrahim Safinin fırçaya aldığı bir çox portretlər bu gün muzeylərdə və fərdi kolleksiyalarda qorunub saxlanılmaqdadır.

Safi 18 yaşında olarkən qısa bir müddətdə (altı ay ərzində) “Türk musiqisinin bəstəkarları”nı əks etdirən doxsan portret işləmişdir. Bu portret kolleksiyasından olan yetmiş əsər bu gün də Yapı Kredi Bankının kolleksiyasındadır. On iki ədəd tablo isə rəssam-kolleksiyaçı Ahmet Fazıl Aksoy tərəfindən Türk Musiqisi Dövlət Konservatoriyasına hədiyyə edilmişdir. Kolleksiyaçı-rəssam demişdir: “Bu məkan görkəmli rəssamın çəkdiyi portretlərə yaraşır. Bu bəstəkarların hər biri bu qurumun müəllimi sayılır”. Sərgilənən portretlər sırasında “Hoca Merği” (1916), “Kazasker Mustafa İzzet efendi” (1916), “Dede İsmayıl Hammami” (1916), “Hacı Sadullah Ağa” (1916),
“Kantamiroğlu” (1916), “Tamburi İrak” (1916), “Nasibin Mehmet Bey” (1916), “Zeki Mehmet Ağa” (1916), “Şakir ağa” (1916), “Halim Ağa” (1916), “Leyla Hanım” (1916) və “Küçük Müezzin Çelebi” (1916) kimi bəstəkarların adları yer almışdır. İbrahim Safiyə olan sonsuz sevgisi və hörməti, hüquq fakültəsinin

məzunu olan kolleksiyaçı Ahmet Fazıl Aksoyu rəssamlığa şövq etmişdir. Bu gün Ahmet Fazılı Türkiyədə İbrahim Safi davamçısı kimi də tanıyırlar [12; s. 16].

İbrahim Safinin portret yaradıcılığında üç model-naturanı görmək olar – həyat yoldaşı Zaxarina xanım, Küfeci Pala və küçə musiqiçisi Cümbüşcü Hafiz olaraq tanınan obrazlara zaman-zaman rast gəlmək olar. Rəssamın qara qələmlə etdiyi çoxsaylı cızma-qaraları və eskizləri belə, çox dəqiq və maraqlı idi. Safi özü ilə hər zaman irili-xırdalı dəftərlər gəzdirir, gördüklərini tez zamanda köçürə bilirdi. O, İstanbulun Kasımpaşa bölgəsində, küçə ortasında oturaraq rəqs edən cingənələri-qaraçıları rəsm etməyi xoşlayırdı. Bunu onun çoxsaylı əsərlərində açıq müşahidə etmək olur.

Bir gün İbrahim Safi Kasımpaşa bölgəsində etüd edərkən, ər-arvadın yüksəkdən və şiddətlə savaşmaqlarının şahidi olur: "Bir ara ayıldım ki, sərt bir cisim başıma dəyərək yerə düşdü. Hər yerə dolma səpələnmişdi. Bəxtim gətirmişdi, şlyapada olduğumdan böyük xəsarət almadım, şələ-şüləmi topladım, getməli oldum" [5; s. 122]. Bir dəfə isə Safinin çəkdiyi əsərin üzərinə balkondan çay tökmüşdülər. Bu cür hadisələrdən narahat olmayan rəssam, işinə sadiq qalaraq davam edib deyirdi: "Yanımda olan uşaqlar gülməyə başladı, lakin mən işləməyə davam etdim və rəsm etdiyim meydana çıxdıqca uşaqlar sakitləşdi və böyük maraqla baxmağa davam edirdilər. Başıma gələnə narahat olmadım, çünki uşaqların mənim əsərimi elə maraqla və diqqətlə seyr etmələri, mənə böyük zövq yaşatmışdı" [2; s. 51]. İbrahimin müşahidə etdiklərindən, yalnız bir nəticə əldə edə bilərik: gerçək hadisələrin rəssamın həyatında nə qədər böyük önəm daşıdığını. Rəssam olmaq real hadisələrdən duyğulanaraq yaşamaq və onları kətana köçürmək deməkdir. Realist bir rəssam hadisələri yaşamalı və ondan təsirlənməlidir.

Safi cingənə-qaraçı obrazlarına, portretlərinə tez-tez müraciət edir. Onların təbii yaşamı rəssamı özünə cəlb edir. Rəssam hər bir işində nikbinlik notları arayaraq, gözəl olanı öz tablolarına köçürməyi bacarır və bunu da bu sözlərlə ifadə edir: "Ömrüm çatana qədər gözəlin daha gözəlini təsvir edəcəyəm, çalışmadığım, rəsm çəkmədiyim günləri yaşanmamış sayıram, xəstəliyimin yeganə əlacı rəsm etməkdir. Dünyaya yüz dəfə də gəlmiş olsam, yenə də rəssam olmaq istərdim" [3; s. 11].

Haluk Erdoğan Atam öz xatirələrində yazırdı, "Safini partlayan bombalar, silahlar, ölən insanlar çox üzürdü". O deyirdi: "Kommunizmi gətirmək istəyən insanların cahilliyinə, bilgisizliyinə kədərlənirəm. Hürriyyətin inanılmaz dadını ondan uzaq qalanlar daha yaxşı başa düşür, gənclər bu günün qiymətini daha yaxşı bilməli, xətalı davranan idarəçilərin əlinə düşməməlidirlər". Safinin "Müharibənin nəticələri" (1938) adlı əsərində cəsədlər üzərində oturmuş qaliblərin portretlərində hüzn və iztirab sezmək olur. Bu isə müharibələrdən keçən

insanın humanizminin əsas göstəricisidir, müharibədə qalib olanlar belə qalibiyyətə sevinmir, kədərlənir" [2; s. 34].

Bu əsəri haqqında özü bu fikri söyləmişdi: "Mən bu əsərimdə müharibənin çirkin tərəfini göstərmək istəmişəm. Mənə görə müharibədə qazanan da ən az məğlub olan qədər zərər çəkir. Əslində, sonda hər iki tərəf heç nə qazanmadıqlarını başa düşür, lakin iş-işdən keçmiş olur. Müharibə heç zaman əlac deyildir. O, insan qəlbində, ruhunda, portretində dərin izlər qoyur" [2; s. 52].

İbrahim Safinin avtoportretləri (öz portretləri) elə bir "məkandır" ki, burada yalnız ustadlıqla kamillik bütöv bir vəhdət təşkil edir. Burada o, həm portret ustası, həm də psixoloqdur. Safinin avtoportretləri rəssamın bizim gözümüz önündə necə dəyişdiyini diqqətlə izləməyə imkan verir [4; s. 49]. Avtoportretlərində izlənilən dəyişiklik anidən yox, zaman-zaman qazanılmış və üz cizgilərində formalaşmışdır. Bir portretində rəssamın özünə inam dolu, lakin bir az özünəməxsus sadəlövhlük görə bilərik. Şlyapasıyla örtülmüş gözlərinin tam sərbəstliyini aşkara çıxara bilmir, lakin al-qırmızı şərfi onun inqilabçı ruhundan xəbər verməkdədir. Bu avtoportreti çəkdiyi dövrdə sanki onu bu cür xatırlayanların sözləri yada düşür. "Boz rənglərdə geyinməyi sevərdi, üzünü ülgüclə səliqəli təmizləməmiş, şlyapasız küçəyə çıxmazdı. Saçlarını qısa kəsdirər, kostyumu ütüsüz olmazdı" [2; s. 34].

Digər avtoportretində özünün daha gənc dövrünü hərbi formada əks etdirib. Burada o, qürurlu, dik qamətini hiss etdirməkdədir, gözündəki yaşamaq eşqi isə gələcəkdə görüləsi işlərin qığılcımını hiss etdirir.

İbrahim Safinin çoxsaylı avtoportretləri içərisində cəlbedici tablolardan biri isə onun qırmızı fondan bizə boylandığı portretidir. Burada Safi öz obrazını daha fərqli təqdim edir. Onun Atatürk sevgisini müasirləri çox gözəl bilir və sayğıyla qarşılayırdılar, bu portretdə istər geyimindəki detallarda, istərsə də baxışlarında olan qətiyyət sanki türk dünyasının öndərini xatırlatmaqdadır.

Safinin portretlər qalereyasında, onun xəzinə qutusunda maraq doğuran saysız-hesabsız portretləri var. Bu portretlər zaman-zaman tədqiq olunaraq öyrənilməli, görkəmli rəssamın kodlaşdırdığı məqamlar aşkara çıxarılmalıdır. Bu portretlər sayəsində, biz məhz elə Safinin öz psixoloji portretinin ümumi rəsmini bir mozaika kimi parça-parça toplayaraq ortaya çıxarmalıyıq.

## Ədəbiyyat siyahısı:


1. Mehdiyeva, T. Ə. Şərurlu iki rəssamın Türkiyə həyatı // "Qobustan", № 3, -2005. - s. 49.
2. Dr. Enver Tali. İbrahim Safi . Hərrac və sərgi kataloqu. -Istanbul. -276 s. (14-52 s. )
3. Sündüş, Aldoğan. İbrahim Safinin sərgisi. //"Sanat" qəz. , -İstanbul, -1963,

s. 11.
4. Володина, Т. Сто памятных дат. Художественный календарь на 1985 год. - Москва: Советский художник. , -1985, - s. 49
5. Roba, Z. İbrahim Safi // Eczacıbaşı Sanat Ansiklopedisi. C. 3, - İstanbul: Yem yayınları, -1998 s. 122.

**Улвия Тапдыг кызы Гамзаева**

**ПОРТРЕТНЫЙ ЖАНР ВТВОРЧЕСТВЕ ИБРАГИМА САФИ**

**Резюме:** В представленной статье рассматривается творчество Ибрагима Сафи, выдающегося азербайджанского художника, достойного представителя стиля реализма. В исследование включены произведения, созданные художником в жанре портрета. Отмечается, что жизненность, удачное композиционное решение и естественность портретов Сафи были нюансами, которые можно было бы отнести к портретному творчеству каждого художника. Портрет требует от художников особой наблюдательности, умения проникнуть в индивидуальный мир и бытие человека. Настоящий портрет создается не простой передачей натуры, а раскрытием индивидуального мира человека, биографии, самой характерной и важной психологической особенности его профессии, настроения.

**Ключевые слова:** Ибрагим Сафи, художник, портрет, картина, композиция, реализм, стиль, автопортрет.

**Ulviyya Tapdiq qizi Hamzayeva** **PORTRAIT GENRE IN THE WORK OF IBRAHIM SAFI**

**Summary:** The presented article discusses the work of Ibrahim Safi, an outstanding Azerbaijani artist, a worthy representative of the style of realism. The study includes works created by the artist in the portrait genre. It is noted that the vitality, successful compositional solution and naturalness of Safi's portraits were nuances that could be attributed to the portrait work of each artist. The portrait requires special observation from artists, the ability to penetrate into the individual world and human existence. A real portrait is created not by a simple transfer of nature, but by the disclosure of a person's individual world, biography, the most characteristic and important psychological feature of his profession, mood, and subtleties.

**Key words:** Ibrahim Safi, artist, portrait, painting, composition, realism, style, self-portrait.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**